*İctimai və humanitar elmlər 11, №1, 2025, səh. 48-53*
https://doi.org/10.59849/3006-1342.2025.1.48
UOT 94(479.24).

*Aysel Əkrəm qızı Qəribova*
*Tarix üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universiteti*
*E-mail: ayxan.aysel611@gmail.com*

# AZƏRBAYCAN SƏFƏVİLƏRİNİN XVII ƏSRİN II YARISI TARİXİ
(ingilisdilli tarixşünaslıq əsasında)

*Şərqin ən qüdrətli sülalələrindən biri olan Qızılbaş Səfəvilər xanədanının hakimiyyəti dövründə beynəlxalq aləmdə mühüm rola malik olmuş, bölgənin əsas nüfuz sahibi kimi təsiredici qüvvə rolunu oynaya bilmişdir. Nəinki qonşu dövlətlər, hətta Şərqi öz nüfuz dairələrinə bölməyə çalışan Avropa xristian dövlətləri belə Səfəvilər ilə hesablaşmağa məcbur olurdular. Səfəvilərin siyasi və iqtisadi vəziyyətinin öyrənilməsi daima tarixçiləri maraqlandırmış və ilkin mənbələr əsasında tədqiqata cəhd edilmişdir. Səfəvilər tarixinin öyrənilməsinə səy göstərən tədqiqatçılar arasında ingilis müəlliflər mühüm yer tuturlar. Onların yazdıqları əsərlərin araşdırılması, müqayisəli təhlillərin aparılması Azərbaycan Səfəvilər imperiyasının tarixinin obyektiv şəkildə işıqlandırılması üçün mühüm əhəmiyyət kəsb edir. Xüsusilə sülalənin tənəzzül dövrünün əvvəllərinə təsadüf edən XVII əsrin II yarısı dönəminə diqqət etsək, müxtəlif aspektli araşdırmaların təhlili nəticəsində əldə edilən elmi faktlar mahiyyət etibarilə mühümdür.*

*Açar sözlər:* Azərbaycan, Səfəvilər sülaləsi, qızılbaş hökmdarlar, tənəzzül, ingilisdilli müəlliflər

## *Giriş*

Dünya tarixinin ən qüdrətli imperiyalarından biri kimi Qızılbaş Səfəvilər dövləti yarandığı gündən Avropanın maraq dairəsindən olmuş və daima bütün istiqamətlərdə xristian dünyasının nəzərləri ölkənin üzərində olmuşdu. Azərbaycan Səfəvilərinin nəinki xarici siyasət kursu, eləcə də daxili siyasi vəziyyəti, ölkə daxilində mövcud sosial münasibətlər, iqtisadi durum, bir sözlə, dövlətə dair bütün məsələlər Avropalıları maraqlandırmışdı. Avropa xristian dünyası Osmanlının qarşısını ala biləcək yeganə qüvvənin məhz türk mənşəli qızılbaşlar olduğunu çox gözəl anlayırdı. Bu məqsədlə Avropa hökumətləri tərəfindən Azərbaycana göndərilən elçi, səfir, diplomatik nümayəndələr ölkə ilə bağlı müxtəlif yol gündəlikləri, hesabat və raportlar hazırlamış, yerlərdəki vəziyyət haqqında məlumatları məktublar şəklində öz hökumətlərinə təqdim etmişdilər. Səfəvilər tarixinin öyrənilməsində ilkin qaynaq olaraq bu məlumatların əhəmiyyəti mühümdür. Bu qaynaqlarda Səfəvilər imperiyasının bütün ərazilərinə dair müxtəlif aspektlərdən məlumat və qeydlər tapmaq mümkündür, belə ki, istər rəsmi dövlət nümayəndələri, istərsə də səyyah, tacir və digərləri, hətta xristian dinini yaymaq adı ilə ölkəyə gələn missionerlərin hər biri gündəliklər tərtib edir və səyahətləri zamanı gördükləri, eşitdikləri hər bir faktı qeyd edirdilər. Onların təqdim etdikləri bu məlumatlar təmsil etdikləri hakimiyyət üçün mühüm əhəmiyyət kəsb edir və gələcək işğal planlarının hazırlanmasında mühüm rol oynaya bilərdi.

Müasir dövrdə dünya tarixşünaslığında maraq doğuran və tez-tez müraciət olunan mövzulardan biri məhz Azərbaycan Səfəvilər sülaləsinin tarixi məsələləridir. Qızılbaş sülalənin hakimiyyətə gəlişi və hökmranlığı dönəmində baş vermiş hadisələr, bu dönəmdə gedən siyasi proseslər, sülalənin beynəlxalq aləmdəki yeri və rolu daim diqqət mərkəzində

olaraq tədqiqata cəlb edilir. Belə bir güclü sülalənin zəifləməsi, dövlətin tənəzzülü və XVII əsrin ikinci yarısına təsadüf edən durğunluq dövrü də dünya tarixçiliyinin əsas araşdırma mövzularından hesab edilə bilər. Əlbəttə ki, Azərbaycan tarixşünaslığına diqqət etsək, deyilən bu məsələlər ilə bağlı kifayət qədər araşdırmalar vardır. Azərbaycan Səfəviləri ilə bağlı tədqiqat aparan görkəmli tarixçilərdən Z.Bayramlı, O.Əfəndiyev, T.Nəcəfli, N.Süleymanov və digərlərinin adını çəkə bilərik. Onu da qeyd edək ki, Rusiya, Türkiyə tarixçilərinin də tez-tez müraciət etdiyi və müqayisəli təhlillər vasitəsilə fərqli münasibət nümayiş etdirdikləri məsələlərdən biri məhz Səfəvilərin durğunluq və tənəzzül dövrü hesab edilir. Azərbaycan Səfəvilər sülaləsi haqqında araşdırma aparan tədqiqatçılar arasında ingilis mənşəli tarixçiləri də göstərmək olar ki, onların tədqiqat əsərləri fərqli yanaşmanı göstərən işlərdir. Xüsusilə Səfəvilərin XVII əsrin II yarısı, Şah II Abbas (1642-1666) və Şah Süleyman (1666-1694) barədə verdikləri məlumatlar, onların yürütdükləri siyasətə dair gəldikləri qənaətlər maraq doğurur. Belə ki, ingilis müəlliflərin verdiyi məlumatlar ilkin qaynaqlara əsaslansa da, bəzi hallarda tarixi gerçəkliyi əks elətdirmir, hətta deyərdik ki, təzad təşkil edir və yerli qaynaqlarda olan faktlarla uyğun gəlmir. Əlbəttə ki, bunun bir neçə obyektiv və subyektiv səbəbləri vardır, eləcə də gəlinən nəticə araşdırmaçının mənşəyindən, təmsil etdiyi dövlətin şərq istiqamətindəki siyasi kursundan asılı olaraq dəyişilir. İngilis müəlliflərin təqdim etdikləri əsərlərin əksəriyyətində Səfəvilərin dini mənsubiyyəti və bunun üzərindən siyasətlərinin qurulması qabardılmış, əsasən də Osmanlı ilə olan əlaqələrdə dini fərqlərin olması səbəbilə gərginliyin izah edilməsinə cəhd edilmişdir. Lakin, tədqiqata cəlb etdiyimiz XVII əsrin ikinci yarısında Səfəvi-osmanlı münasibətlərinə diqqət yetirsək, burada dini fərqlərin elə də boyük rol oynamadığını və əvvəlki əsrlərdə iki türk dövləti arasında olan gərginliklərin sadəcə bəhanə olaraq dini fərqlərdən istifadə edilməsini bir daha görə bilərik. Dini fərqlərin qabardılması xüsusiyyətini Səfəvilərin tənəzzülü dönəmində baş qaldırmış separatçı üsyanlarda da əsas səbəb olaraq göstərilməsini düzgün hesab etmirik. Mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edərək imperiyaya birləşdirilmiş ərazilərdə yerli hakimlərin müstəqilliyə can atması bütün imperiyaların tarixində izləmək mümkündür. Dini ayrı-seçkilik məsələsi isə üsyan başçılarının istifadə etdikləri bəhanə kimi qeyd edə bilərik. Digər bir məsələ Şərq istiqamətində yürüdülən ingilis siyasətinə münasibətin olmaması və üzərindən sükutla keçilməsidir. Bildiyimiz kimi, Avropalılar, xüsusilə ingilislər iki türk dövləti arasında münasibətlərin dostluq və mehribanlıq üzərində qurulmasını istəmir, əksinə hər iki dövləti bir-birinə qarşı qaldırmaqla güclərini zəiflətməyə, bununla da şərqdə öz əl-qollarının açılmasına çalışırdılar. Lakin ingilis müəlliflərin əsərlərində Avropa hökumətlərinin bu planları gizlədilir, bu istiqamətdə atılmış addımlara fərqli yanaşma nümayiş etdirilir, kəşfiyyat üçün göndərilən şəxslərin fəaliyyətinin üzərindən əksər vaxtı tamamilə qeyd edilmədən sükutla keçilir.

**İngilisdilli müəlliflər.**

Səfəvilərin və ümumi olaraq Qızılbaşlar tarixinin XVII əsrin II yarısı ilə bağlı tədqiqat aparmış ingilisdilli tədqiqatçılardan biri L.Lokkartdı (1890-1975). XVII əsrin sonu – XVIII əsrin ortalarınadək Səfəvilər və Nadir şah Əfşar dönəminin tədqiqatçısı olan ingilis tarixçi ilkin fars dilli, erməni dilli mənbələrdən geniş istifadə etmiş, eləcə də Avropanın tarixi əsərlərinə müraciət etmişdi. Dünya tarixçiliyində yüksək qiymət verilən və şərq tarixinin dərin bilicisi hesab edilən L.Lokkartın əsas tədqiqat obyekti Nadir şah Əfşar olsa da, bununla bağlı əsərində Səfəvilərin son dönəmlərinə diqqət yetirmiş, xarici və daxili siyasət məsələlərini araşdırmış, müqayisəli təhlillər etmişdi. Şah II Abbasın hakimiyyəti dövründə siyasi durumu, iqtisadi-sosial vəziyyəti müsbət qiymətləndirən L. Lokkart yazır ki, təbiətən qəddar olmasına baxmayaraq, o ölkəni ağılla və ədalətlə idarə edirdi. Atası və gələcək xələfləri kimi tüfeyli həyat tərzinə meyl göstərsə də, hakimiyyət buxovlarını əlindən buraxmırdı. Müəllifin fikrincə, əgər Şah II Abbas uzun zaman hakimiyyətdə olsaydı, atasının səriştəsiz hökmranlığı dövründə

başlanmış tənəzzül prosesinin bəlkə də qarşısını ala bilərdi [4, 28-29]. Şah II Abbas dövrünün siyasi məsələlərini araşdırsaq, həqiqətən tənəzzülün qarşısını ala biləcək, durğunluğu aradan qaldıra biləcək gücə sahib olan iradəli bir hökmdar görə bilərik. Düzdür, beynəlxalq aləmdəki siyasi proseslər, dünya iqtisadi güc mərkəzlərində baş verən dəyişiklikləri də nəzərə alsaq, Səfəvilərin yenidən qalxması və fərqli bir şəkildə inkişafını təxmin etmək mümkündür.

Səfəvilər tarixinin daha bir ingilis tədqiqatçısı Con Malkolm (1769-1833) Şərq tarixi ilə dərindən maraqlanmış, Hindistan, İran, Mərkəzi Asiya ilə bağlı mühüm əsərlər yazmışdı. C.Malkolm Şah II Abbasın dövlət məmurlarına qarşı sərt olmasını xüsusi vurğulayaraq yazır ki, ancaq o tələblərinə qarşı mülayim və səbirli idi, ölkə əhalisi onu hakimiyyətdə olmuş padşahların ən görkəmlisi və ədalətlisi kimi tanıyırdı [6, 582-583]. Ümumi şəkildə Şah II Abbasın dövrünü səciyyələndirsək, 1649-cu ildə Qəndəharın geri qaytarılması, iqtisadi və ticarət münasibətlərinin inkişafını görə bilərik. Lakin, bəzi qaynaqlarda Şah II Abbas içki düşkünü və pis vərdişlərə malik bir hökmdar kimi səciyyələndirilmişdi ki, hesab edirik ki, bu dönəmdə dövlətin əldə etdiyi uğurlar tüfeyli həyat sürən bir hökmdarın dövründə olması müşküldür və bu qızılbaş hökmdarı haqqında verilmiş mənfi xüsusiyyətlər heç də həqiqətə uyğun deyildir. Şah II Abbasın ölümündən sonra Şah II Səfinin (Süleyman şah) (1666-1694) hakimiyyətə gəlişindən sonra vəziyyət xeyli dəyişildi. Dövrün bütün qaynaqlarında və tarixi ədəbiyyatlarında Süleyman Şah haqqında birmənalı fikir mövcud deyildir və əksərən hərəmxana divarları arasında böyümüş, öz ətrafında olan saray adamlarının təsiri altında olan bacarıqsız hökmdar kimi xarakterizə olunur. Onun hakimiyyəti dövrünə qiymət verən Məhəmməd Möhsün yazır ki, vaxtının çoxunu eyş-işrətə sərf edən Süleyman Şah sərxoş vəziyyətdə olarkən dövlətin dayağı olan əyanların çoxunun qətlinə əmr vermişdi. Müəllif Süleyman Şahın hərəmxana həyatına meylli olmasına toxunaraq göstərir ki, Şah 27 il hərəmxanada qalıb, bircə dəfə də oranı tərk etməmişdi [4, 29; 3, 89]. İngilis müəlliflərin qeyd etdiyi bu fakt digər mənbələrdə tam olaraq öz təsdiqini tapmasa da, Səfəvilər sülaləsinin tənəzzülünün başlandığı bir dönəm olması təkzib edilməz faktdır və hesab edilir ki, məhz bu dönəmdə qızılbaş hökmdarların zəif iradəli olması dövlətin durğunluqdan çıxmasını mümkünsüz etmişdir. Engelbert Kempferin yazdığına görə, Şah Süleymanın hakimiyyətinin ilk ilində bütün ölkəni qıtlıq və bahalıq bürümüşdü, ərzaq çatışmırdı və əhali arasında taun xəstəliyi yayılmışdı. Belə bir vəziyyətdə ölkəyə qonşu dövlətlər tərəfindən hücum təhlükəsi də gözlənilirdi və bu təbii olaraq, əhali arasında ciddi qorxuya səbəb olmuşdu. Əslində, ümumi imperiya ərazisində baş vermiş təbii fəlakətlər ucbatından kənd təsərrüfatı sahələrinin dağılması və bu səbəbdən iqtisadi böhranın olması təbii hal idi. Lakin bu iqtisadi böhran sülalənin siyasi durumuna və xarici dövlətlər ilə münasibətlərə mənfi təsir etmədi. Bununla belə bir faktı yada salaq ki, 1667-ci il 20 martda Süleyman şahın tacqoyma mərasiminə Osmanlı sultanı IV Mehmet (1648-1687) qiymətli hədiyyələr ilə öz elçilərini göndərmiş, eləcə də illik xərac ödənməsi əvəzində sülh münasibətlərinin davam etdirilməsi razılığı əldə edilmişdi. Verilən məlumatlara əsasən danışıqlar zamanı Osmanlı nümayəndə heyəti xristianlar ilə müharibə üçün Səfəvilərdən yardım istəmiş, Şah Süleyman isə heç bir tərəfə olmadığını, Osmanlıya yardım əvəzində isə əsrlər boyunca Qızılbaş xanədanına məxsus olan Bağdadın geri qaytarılmasını tələb edəcəyini bildirmişdi. Onu da qeyd edək ki, Osmanlı ordusunun Avropadakı uğursuz fəaliyyətindən sonra Porta bütün diqqətini cənub sərhədlərinə yönəltmişdi. İraqın şimal vilayətlərinə hakim olaraq göndərilən Süleyman Baban dəfələrlə Səfəvi sərhədlərini keçərək, sərhədboyu ərazilərə hücumlar təşkil etmişdir. Onun qarşısını almaq məqsədilə 1678-ci ildə Rüstəm xan qızılbaş ordu dəstələri ilə ona qarşı çıxmış və ağır məğlubiyyətə uğrada bilmişdi. Lakin bu sərhəd münaqişəsi diplomatik danışıqlar vasitəsilə tez bir zamanda sakitləşdirilmiş və böyük bir hərbi əməliyyatların qarşısı alınmışdı. Maraqlıdır ki, XVII əsrin 80-ci illərində Osmanlı dövləti Avropada irimiqyaslı hərbi əməliyyatlar apardığı dövrdə, Vyananı mühasirədə saxladığı zaman Avstriya, Venesiya və digər Avropa ölkələrinin

səfirləri paytaxt İsfahana gələrək Şah Süleymana itirilmiş Bağdad və ətraf ərazilərin qaytarılması üçün əlverişli məqam yarandığını, Osmanlıya qarşı müharibəyə başlamağı təklif etsələr də, bu səfirliklər məqsədlərinə nail ola bilməmiş, "Osmanlı problemi" ilə bağlı gizli tapşırıqları yerinə yetirmədən geri dönməyə məcbur olmuşdular. Şah Süleymanın baş vəziri Polşa səfiri Solomon Skurki ilə danışıq zamanı ona qəti olaraq bildirmişdi ki, Şah ölkənin ərazisinin bir qismini güzəştə gedər, ancaq Osmanlı dövləti ilə müqaviləni pozmaz və ona tabe olan ölkələrə hücüm etməz [1, 84]. Həm Osmanlı, həm də Avropa ilə gedən bu danışıqlar Səfəvilərin hələ də Şərqdə söz sahibi olmasını və hökmran olaraq onunla hesablandığını göstərir. Onu da qeyd edək ki, 1691-ci ildə Osmanlı taxtına yeni hökmdar Sultan II Əhməd (1691-1695) çıxarkən Səfəvi hökmdarı Süleyman şah türk sarayında baş qaldırmış çəkişmələrdən sui-istifadə etməmiş, əksinə qiymətli hədiyyələr ilə böyük bir nümayəndə heyətini təbrikə göndərmişdi. Süleyman şahın Osmanlı dövləti ilə münasibətlərini təhlil etsək, qızılbaş hökmdarın kifayət qədər müdrik siyasi addımlar atdığının şahidi ola bilərik.

Digər bir ingilis müəllif olan R.Seyvori (1925-2022) Səfəvi hökmdarı Süleyman şahın dövlət işlərinə biganəliyini hakimiyyətinin xarakterik cəhəti kimi təqdim edərək yazır ki, bu biganəlik xarici siyasət sahəsində durğunluq, ölkənin maraqlarının qorunmaması, əraziləri genişləndirmək iddiasının yoxluğu səbəbindən ordunun gücünün təbii ki, zəifləməsi ilə müşayiət olunurdu [7, 241]. Ancaq C.Malkolm, L.Lokkart və R.Seyvorinin Şah Süleyman haqqında yazdıqlarını tarixi həqiqət kimi qəbul etmək heç də doğru olmaz. Səfəvi dövrünün qaynaqlarına adları çəkilən müəlliflərdən fərqli olaraq daha mükəmməl bələd olan A.Bakıxanovun (1794-1847) Şah Süleymana verdiyi qiymət ingilis müəlliflərin fikirlərinin doğru olmadığını göstərir. A.Bakıxanov Şah Süleyman haqqında yazır: "Bütün tarixçilərin yazdıqlarına görə, Şah Süleyman ədalətli və ciddi, ölkədarlıq fənlərində mahir, elmi sevən, şəriətpərvər və qonşu sultanlar ilə dostluq mərasimini gözləyən bir padişah idi. Ömrünün axırlarında şiddətli ayaq ağrısından yeddi il yataqda yatıb, hicri 1105-ci (1694) ildə vəfat etdi" [2, 145]. Bütün bunlara baxmayaraq, tarixi araşdırmalardan gətirilən misallar göstərir ki, XVII əsrin sonu Səfəvi dövlətinin iqtisadi vəziyyəti ilə yanaşı, onun xarici siyasət kursunun da zəiflədiyi bir dövrdür. Onu da qeyd etmək lazımdır ki, bu dövrdə Səfəvi dövlətinin xarici siyasətində tənəzzül birtərəfli qaydada müşahidə olunur. Belə ki, xarici ölkələrdən, xüsusilə də Avropa ölkələrindən Səfəvi sarayına çoxlu sayda elçi və səfirlər gəlsə də, İsfahan sarayı əksər hallarda bu çağırışlara etinasızlıq göstərirdi. İngilis müəllif R.Seyvorinin verdiyi digər məlumata əsasən XVII əsrin ortalarında İran körfəzində Hollandiyanın ticarət dövriyyəsi 100 min funta çatmış, ingilislər isə faktiki olaraq oradan çıxmışdılar. 1660-cı ildən ingilislər yenidən Səfəvi bazarlarında öz mövqelərini bərpa etməyə başlasalar da, Hollandiya ilə müqayisədə xeyli geri qalırdılar [7, 112]. Müəllifə görə, hollandların öz mövqelərini mökəmlətməsi, əllərində olan imtiyazlardan istifadə edərək öz səlahiyyətlərini daha da genişləndirməsi heç də Hollandiya hökumətinin buradakı siyasi fəaliyyəti ilə bağlı olmayıb. Əksinə, Hörmüz körfəzində ingilislərin nüfuzlarına zərbə endirmək, ingilislərin buradakı hegemonluğuna son qoymaq məqsədilə atılmış bir addım idi. Eyni zamanda, qaynaqlarda İsfahan sarayında bu dönəmdə geniş tətbiq olunan "şirinlik, hədiyyə" – rüşvət halları da geniş yayılmış və bu üsulla Avropalılar daha çox imtiyaz əldə etməyə çalışırdılar.

Səfəvilərin son dövrünü, XVII əsrin II yarısı - XVIII əsrin əvvəllərini xarakterizə edən Con Malkolm Qızılbaşlar dövlətinin tənəzzül və durğunluq yaşadığını görüb, haqlı olaraq yazır ki, biz bundan daha xoşagəlməz dövrü təsəvvür edə bilmərik. Bir əsrə qədərki dövr ərzində əhəmiyyətə malik heç bir siyasi olay baş verməmiş və bu dönəm mahiyyət etibarilə fərqli olmayan bir yöndə ötmüşdür. Bu dövr heç bir şanlı nailiyyət, tarixdə iz qoya biləcək parlaq şəxsiyyətlərlə seçilmir. Demək olar ki, millət öz əvvəlki şöhrətinin işığında mövcudiyyətini davam etdirirdi [5, 568-570]. XVII əsrin sonu - XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin xarici siyasət kursunda durğunluq və tənəzzül meylləri yalnız Qərbi Avropa

dövlətləri ilə deyil, həmçinin Osmanlı, Böyük Moğol və Mərkəzi Asiya dövlətləri ilə münasibətlərdə də müşahidə olunurdu. Xarici siyasi məsələlərdə hakim sülalənin yaşadığı gərginlik ölkədəki daxili vəziyyətə də təsir edir, əhali arasında münasibətlərin kəskinləşməsinə, qeyri-türklər tərəfindən üsyan və qiyamların qalxmasına gətirib çıxarırdı. Belə narazı bölgələrdən biri Kartli-Kaxetiya idi ki, gürcülərin qaldırdıqları üsyan tez bir zamanda geniş əraziyə yayılmış və mərkəzi hakimiyyətdən asılılığa son qoymaq, həmçinin

*Nəticə*

Gördüyümüz kimi, ingilis müəlliflərin əsərləri Azərbaycan Səfəvilər dövlətinin tarixinə dair mühüm tədqiqatları əhatə edir. Bu əsərlər kifayət qədər əhatəli olmaqla yanaşı, həm də fərqli fikirləri, müxtəlif aspektli düşüncələri yaratmış olur. Bu baxımdan Səfəvilər sülaləsinin hakimiyyət dövrünün, əsasən də tədqiqata cəlb etdiyimiz XVII əsrin ikinci yarısının öyrənilməsi üçün vacib işlərdir. İngilis müəlliflərin qeyd etdikləri faktları müqayisəli şəkildə təqdim edir və tədqiq etdiyimiz XVII əsrin II yarısına dair kifayət qədər dərin təhlillər vardır. İngilisdilli müəlliflərin əsərlərinin araşdırılması nəticəsində belə bir qənaətə gəlmək olar ki, ilkin mənbələr əsasında yazılmış bu tarixi əsərlər Səfəvilər tarixinin öyrənilməsində mühüm rola malikdirlər. Belə ki, bu müəlliflər yerli farsdilli, erməni və gürcüdilli mənbələrdən istifadə etməklə yanaşı, həm Osmanlı, həm də Avropa qaynaqlarından yararlanmışdılar. Eyni zamanda, müqayisəli təhlillərin aparılması, özlərindən əvvəl yazılmış tarixi əsərlərə müraciət edilməsi ingilis müəlliflərin araşdırmalarının çəkisini daha da artırmış olur. Bununla belə, bəzi hallarda yerli mənbələrdə olan və gerçək tarixi faktların təkzib edilməsi və ya subyektiv səbəblərdən irəli gələrək müəyyən məsələlərin üzərindən sükutla keçilməsi və ya əksinə olaraq tarixə uyğun olmayan hər hansı problemin daha da şişirdilməsi bu əsərlərə daha diqqətlə yanaşmanı mütləq edir.

ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Redaktor: Süleyman Əliyarlı, Bakı: Azərbaycan, 1996, 872 s.
2. Bakıxanov A. Gülüstani-İrəm. Bakı: Möminin, 2001, 287 s.
3. Dadaşova R.İ. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Bakı: Nurlan, 2008, 439 s.
4. Əfəndiyev O.A. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007, 344 s.
5. Əhmədov B.Ə. XVII əsrin birinci yarısında İngiltərənin Şərq siyasəti. Bakı: Nafta press, 1998, 234 s.
6. Həsənalıyev Z.M. Səfəvi dövləti (XVII əsrin I yarısı). Bakı: Altay, 2000, 163 s.
7. Həsənalıyev Z.M., Bayramlı Z.H. II Şah Abbasın hakimiyyəti illərində Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti. Bakı: Elm, 2011, 88 s.


*Айсель Акрам кызы Гарибова*
*Бакинский Государственный Университет*

ИСТОРИЯ АЗЕРБАЙДЖАНСКОГО СЕФЕВИДСКОГО ГОСУДАРСТВА ВО ВТОРОЙ ПОЛОВИНЕ XVII ВЕКА
(на основе англоязычной историографии)

*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, династия Сефевидов, кызылбашские правители, упадок, англоязычные авторы

Во времена правления одной из самых могущественных династий Востока, династии Кызылбашей Сефевидов, она имела важную силу в международном мире и

была способна играть роль влиятельной силы в качестве главного влиятельного лица в регионе. С Сефевидами вынуждены были считаться не только соседние государства, но даже европейские христианские государства, пытавшиеся разделить Восток на свои сферы влияния. Историки всегда интересовались изучением политического и экономического положения Сефевидов, и попытки исследования проводились на основе первоисточников. Английские авторы занимают важное место среди исследователей, стремящихся изучить историю Сефевидов. Изучение написанных ими произведений и проведение сравнительного анализа важны для объективного освещения истории Сефевидской империи Азербайджана. Если обратить внимание на период второй половины XVII века, совпавший с началом упадка династии, то существенно важными являются научные факты, полученные в результате анализа различных сторон исследований. В то же время проведение сравнительного анализа, ссылаясь на написанные до них исторические работы, еще больше увеличивает вес исследований английских авторов. Однако в ряде случаев отрицание реальных исторических фактов или замалчивание отдельных вопросов в силу субъективных причин, а также преувеличение какой-либо проблемы, не соответствующей истории, заставляют подходить к этим произведениям более внимательно.

*Ph.D. Aysel Akram Garibova*
*Baku State University*

THE HISTORY OF THE AZERBAIJAN SAFAVI STATE IN THE SECOND HALF OF THE 17$^{TH}$ CENTURY

*SUMMARY*

*Key words:* Azerbaijan, Safavid dynasty, gold-headed rulers, decline, English-language authors

During the reign of one of the most powerful dynasties of the East, Qizilbash Safavid dynasty had an important power in the international world and was able to play the role of an influential force as the main influencer of the region. Not only the neighboring states, but even the European Christian states, which tried to divide the East into their spheres of influence, were forced to reckon with the Safavids. Historians have always been interested in the study of the political and economic situation of the Safavids, and research has been attempted based on primary sources. English authors occupy an important place among the researchers who strive to study the history of the Safavids. Examining the works written by them and conducting comparative analyzes are important for the objective illumination of the history of the Safavid Empire of Azerbaijan. If we pay attention to the period of the second half of the 17$^{th}$ century, which coincided with the beginning of the dynasty decline, the scientific facts obtained because of the analysis of various aspects of research are essentially important. At the same time, conducting comparative analyses, referring to historical works written before them, increases the weight of English authors the research even more. However, in some cases, the denial of real historical facts or the passing over of certain issues in silence due to subjective reasons, as well as the exaggeration of any problem that is not in accordance with history, make it necessary to approach these works more carefully.

***Daxil oldu: 13.02.2025-ci il***